KRED

№05 (985) 30 yanvar 2020-ci il

# ƏN SON GÜLƏN YENƏ YALAN DÜNYADI...

## 20 Yanvar barədə düşüncələrim...

*17.01.2020-ci il tarixində Milli Kitabxanada Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə 20 yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş tədbir, Milli Kitabxananın nəşr etdiyi "20 Yanvar Qan Yaddışımız" adlı kitabın və eyniadlı Elektron məlumat bazasının, habelə 20 Yanvar İctimai Birliyi tərəfindən nəşr olunmuş "Qalibiyyət qartalları" kitabının təqdimat mərasimi keçirildi. Tədbirdə mən də iştirak edirdim. Milli Kitabxananın direktoru, professor hörmətli Kərim müəllim Tahirov mənə də söz verdi. Mən "Qara yanvar gecəsində" adlı şeirimi söylədim. Tədbirdə hamı kimi çox kədərləndim. Ancaq onu da qeyd edim ki, biz Şəhidlərimizi və xalqımızın faciəsini tək anım günlərində deyil həmişə xatırlayırıq. Mənə söz verdiyinə görə hörmətli Kərim müəllimə dərin təşəkkürümü bildirirəm. Həmişəki kimi Kərim müəllim biz gənclərə çox dəyər verir.*

---

20 Yanvar xalqımızın həm faciəsi, həm də qürur rəmzidir. 20 Yanvar elə bir gün idi ki, o vaxt heç kəs Sovetə mədhiyə qoşmadı. Qoşanlardan da danışmadı. Sovetə mədhiyə qoşanlar utandı. Bunu gizləməyə çalışdı, lakin, sənədlər var, kitablar var, qəzetlər var. . Hər yazılan bilinir. Hələ indiki dönəmdə onların araşdırılması dəqiqələr çəkir.

O vaxt nə dirilər rahatlandı, nə də ruhlar. Hamısı qalib gəlib müstəqil olmaq eşqilə çırpınırdı. Milli Kitabxananın direktoru Kərim müəllim Tahirov dediyi kimi heç bir yerdə Bakı hadisələrindən geniş masştablı qırğınlar törədilməyib. Nə Qırğızıstan, nə Tacikistan, nə Latviya-Litva Azərbaycan qədər acı çəkə bildi, nə də Qazaxıstan.

Oldu da nə oldu. Şəhidlərdən sonra naşükürlüyümüzdən əl çəkə bildikmi. Kimimiz müstəqillikdən şikayət edir, kimimiz Sovetlərə dönmək istəyir Əgər bu qədər müstəqillikdən şikayət olunacağını bilsəydilər Şəhidlər Şəhid olmazdılar. Niyə naşükürlənirik Evimizdə rahat otura biliriksə, söz azadlığımız varsa, fikir azadlığımız varsa, niyə naşükürlük edirik. Bu yalan dünyada rahatlana biliriksə, niyə naşükürlük edirik. Şəhidlər bizim üçün qurban getdilər Onlar naşükür olmamağımız üçün, bizim rahat yaşamağımız üçün, müstəqil olmağımız üçün qurban getdilər.

Mən şikayət edirəm, düzdür Ancaq yalan yerə şikayət etmirəm.

Yanvar aylarının başlarında bir qrup hind Şəhidlər Xiyabanında oynadılar Özü də bunu videoya çəkdilər. Günah onlarda deyil, günah bizdədir. 30 illiyini qeyd edən Şəhidlər Xiyabanında bir nəzarətçi yoxdur? Var. Varsa niyə onları buraxıblar oraya?

Şəhidlər Xiyabanı Ağcabədidə deyil, Dağıstanda deyil, Bakının mərkəzindədir. Türkiyənin mərkəzində bir söyüş söyəni cəzalandırırlar. Bəs indi bu nə oldu Adamı yandıran odur ki onların oynaması yanvar ayına, 20 Yanvarın 30 illiyinə təsadüf etdi. Hind dilində bir çox sözlər var ki, bizim dilimizlə uyğun gəlir: Janaan-Canan, Fanaa-fəna, İnsaniyat-humanizm və sonda Shahed-Şahid, Şəhid Əgər Shahed sözü onlarda və bizdə varsa, bunlar başa düşmürlər ki, burada Şəhidlər dəfn olunub? Qəbir nədir, bilmirlər? Heç Hindistanda olan xristian ya müsəlman qəbirlərilə də tanış deyillər?

Mən bir söz deyim, nə qədər belə hadisələr olacaq, ən son gülən yenə yalan dünya olacaq..

Hökm etmərik min il yaşasaq da biz,  
Zalım pəncəsində çilə çəksək də biz.  
Kimi düşüb zövqə pislər içində,  
Vətən dərdindən dərman ver, içim də.  
Nə qədər ki, belə hallar olandı,  
Ən son gülən yenə yalan dünyadı...

*18. 01. 2020. saat 14-32.*



Səninlə biz and içirik! Ülvi Bünyadzadə... Şəhid şairimizin timsalında bütün və bütöv Azərbaycan şəhidlərinə həsr olunur.

Bu yerlərdə donub qan, ey məşəlim, alovlan!  
Alovlan ki, nurlansın yurdumun hər bir yanı.  
Ya yenə park ol indi, ya da yenə xiyaban,  
Əbədiyyət məkanı, Şəhidlər Xiyabanı!  
Həm burda bakılı var, həm də ki, Xocalılar!  
Burda onlarla birgə bütöv Azərbaycan var!  
Sel olsa da göz yaşım, burda bir ümid yaşar,  
Əbədiyyət məkanı, Şəhidlər Xiyabanı!  
O qol götürülərkən və dəfn olunarkən,  
Qorbaçovlar qol çəkdi, satdı yurdu yenidən,  
Bizsə cırdıq sənədi, qanlarımızla birdən,  
Əbədiyyət məkanı, Şəhidlər Xiyabanı!  
Amalım Ülvi olub, şəhid İlqarım olub,  
Bu Şəhid qanı dərdə şirin dərmanım olub,  
Fərizəm Nigar olub, həm Natəvanım olub,  
Əbədiyyət məkanı, Şəhidlər Xiyabanı!  
Andım İlhamın andı, andım Ülvinin andı,  
30 il alovlanan məşəlim alovlandı,  
Burda bayrağım vardır, üstündəkiysə qandı,  
Əbədiyyət məkanı, Şəhidlər Xiyabanı!  
Neçə ümidlər vardı, neçə arzular vardı,  
O vaxt o gənc Habilin də ad günü olardı,  
İndi ahıl Habilim ad gününün mehribandı,  
Əbədiyyət məkanı, Şəhidlər Xiyabanı!  
İşıq kimi keçmədi, külək kimi əsmədi,  
Gecədə azad olan xalqım səsin kəsmədi,  
İlham "Azadlıq!" dedi, yarı onu səslədi,  
Əbədiyyət məkanı, Şəhidlər Xiyabanı!  
Əyilməzi əydik biz, çox səylər elədik biz,  
Əvvəldən susmuşduq biz, dedik ki, beləyik biz!  
Axan göz yaşı idik, gözdəki giləydik biz,  
Əbədiyyət məkanı, Şəhidlər Xiyabanı!  
Uca "Kirov" heykəli ucaldılan o yerdə,  
İlham yatır, Albert yatır, Çingiz yatır, bir də,  
Qəhrəmandan güclü olmaz nə aslan, nə şir də,  
Əbədiyyət məkanı, Şəhidlər Xiyabanı!  
Qatillər gülləsinə qurban gedən o andan,  
Gözün sabaha dikdi, şəhid qorxmadı qandan,  
Hamısına xidmət edir "yan"dan qorxmayanlardan,  
Əbədiyyət məkanı, Şəhidlər Xiyabanı!  
Dəniz kimi coşqundur Xəzərin sahilində,  
Acı görüb, yorğundur 90-nın əvvəlində,  
Qurulmasın Xiyaban, heç ölməsin heç kim də,  
Əbədiyyət məkanı, Şəhidlər Xiyabanı!

***Sevindik NƏSİBOĞLU***  
***20.01.2020.***

REDAKSİYA HEYƏTİ

Əli Rza Xələfli - *baş redaktor*  
(www. eli-rza-xele - fli. net)

Asif Rüstəmli  
Ağarəhim Rəhimov  
Baba Babayev